UOT 32
DOI:10.30546/3006-0346.2024.5.83.020

# AZƏRBAYCAN RESPUBLİKASINDA MİLLİ ELEKTRON HÖKUMƏT PORTALININ YARADILMASININ ƏHƏMİYYƏTİ VƏ PERSPEKTİVLƏRİ

**MURAZ SÜLEYMANOV**
*Bakı Dövlət Universitetinin Politologiya və sosiologiya kafedrasının doktorantı*

*E-mail: murazsuleymanov01@gmail.com*
*Orcid İD :0009-0002-2025-4289*

Müasir dövrdə demokratiyanın əsas göstəricilərindən biri hesab edilən elektron hökumətin formalaşdırılması mühüm aktuallıq kəsb etmişdir. Burada əsas məqsəd xidmət sektorunda məmur və vətəndaşlar arasında olan münasibətləri şəffaflaşdırmaq və vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətini artırmaqdır. Xidmət keyfiyyətinin artırılması və vətəndaş məmnunluğunun təmin edilməsi üçün inkişaf etmiş dövlətlərdə bütün elektron xidmətlər "bir pəncərə" prinsipi əsasında təşkil edilmiş elektron portal vasitəsilə həyata keçirilir.

Beynəlxalq təcrübədən çıxış edərək deyə bilərik ki, portal vasitəsilə vətəndaşlara göstərilən xidmətlər, demək olar ki, oxşarlıq təşkil edir və eyni xidmətlər göstərilir. Fərq əsasən xidmətlərin sayında və tətbiqin özəlliklərində özünü göstərir. Respublikamızda elektron hökumətə keçid son dövrlərdə baş vermişdir. Bu çərçivədə sürətli formada aparılan islahatlar və həyata keçirilən yeniliklər həm dövlət idarə etməsinə, həm də vətəndaşların hayatına müsbət mənada kifayət qədər dəyişikliklər gətirmişdir.

Elektron portal vasitəsilə xidmətlərin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq fərmanlarına əsasən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində "Elektron Hökumətin İnkişafı Mərkəzi" publik hüquqi şəxs yaradılmış və Mərkəzin elektron hökumətlə bağlı dövlət siyasətinin həyata keçirilməsi, eləcə də, fəaliyyətinin təşkili Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin səlahiyyətinə verilmişdir [2].

## Elektron hökumət portalının yaradılmasının əhəmiyyəti və istifadəsi

Elektron Hökumət Portalı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 14 mart 2018-ci il tarixli 1885 nömrəli fərmanına əsasən "Elektron Hökumətin İnkişafı Mərkəzi"nin bir istiqaməti kimi fəaliyyətə başlamışdır [1]. Azərbaycan Respublikasının Milli Elektron Hökumət Portalı dövlət qurumlarının elektron xidmətlərinin mərkəzləşdirilmiş qaydada təqdim edilməsini həyata keçirir. Burada vətəndaşlar qanunvericiliyə uyğun formada dövlət orqanlarının portala qoşulmuş informasiya məlumatlarını əldə edə bilərlər. Portalın əsas fəaliyyət istiqaməti kimi bütün xidmətlərin vahid platforma üzərindən, yəni "bir pəncərə" prinsipinin tətbiqini göstərə bilərik.

Məlumdur ki, son illərdə İKT-nın inkişafı dünya iqtisadiyyatında aparıcı, əsas, eləcə də, dinamik inkişaf edən bir sahə kimi mühüm amilə çevrilmişdir. Aparılmış statistik nəticələr onu deməyə əsas verir ki, 2013-cü ildə artıq Azərbaycan əhalisinin 70%-i internet istifadəçisi kimi qeydiyyata alınmışdır [3]. Əhalinin internetə çıxış imkanlarının formalaşdırılması ilə ölkədə "elektron hökumət"in tətbiqinə ciddi diqqət yetirilmişdir. E-hökumətin inkişafı məmur-vətəndaş münasibətlərinin kompüter və digər informasiya texnologiyaları avadanlıqlarından istifadə etməklə şəffaflaşdırılması ilə ilk növbədə yarana biləcək bürokratik əngəllərin başvermə ehtimallarının aradan qaldırılmasına xidmət etməyə və bu kimi neqativ halların qarşısının alınmasına yönəlmişdir. Elektron hökumət ölkə iqtisadiyyatının inkişafında mühüm perspektivə malik olduğu üçün xüsusi diqqət kəsb etməklə, dövlətin prioritet sahələrindən biri olduğu bəyan edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 16 yanvar 2013-cü ildə təsdiq edilmiş 2664 nömrəli Sərəncamı əsasında 2013-cü ilin Azərbaycanda "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan olunması bunu bir daha sübut etmişdir [3].

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də müasir innovasiyalara əsaslanaraq yaradıcı və innovativ cəmiyyətin yaradılmasına xüsusi diqqət yetirilməsi və bu prosesin reallaşdırılması göstərilmişdir. Bu tədbirlər əsasında "e-gov" portalının səmərəli fəaliyyətini təmin etmək məqsədilə, mütəmadi olaraq portalda yeniliklər edilir, elektron xidmət sahələri artırılır və yeni xidmətlər yaradılır. Elektron hökumət portalı vətəndaşlara Azərbaycan və ingilis dili olmaqla iki dildə xidmət göstərir. Eyni zamanda portalda ola biləcək çatışmazlıqlar və ya portalın fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı vətəndaşlara öz rəylərini bildirmək üçün xüsusi hissə ayrılmışdır. Vətəndaşlar

"rəy bildirin" hissəsinə daxil olaraq öz fikir, təklif və şikayətlərini göndərə bilərlər [9].

Portaldan hər kəsin istifadə etməsi və xidmət sahəsindən yararlanması mümkündür. Elektron hökumət portalından tam şəkildə istifadə etmək üçün portala giriş etmək vacibdir. Belə ki, giriş üçün vətəndaşlar elektron imzadan (asan imza) istifadə edirlər. Girişin bu qayda da həyata keçirilməsi informasiya təhlükəsizliyinin təmin edilməsi üçün mühüm əhəmiyyət kəsb edir. Çünki komputer texnologiyalarının inkişaf etməkdə olduğu müasir dövrdə məlumat mübadiləsi zamanı ötürülən informasiyanın təhlükəsizliyinin təmini günümüzdə aktual xarakter daşıyır. Bu səbəbdən dövlət qurumları ilə müxtəlif əməliyyatları yerinə yetirən zaman vətəndaşlara məxsus şəxsi məlumatların üçüncü tərəf və ya tərəflərin əlinə keçməməsi üçün təhlükəsiz şəbəkələrin formalaşdırılması vacibdir. Eyni zamanda, elektron əməliyyatlar həyata keçirilən vaxt vətəndaş identifikliyinin müəyyən edilməsi də, təhlükəsizlik qədər vacib bir prosesdir. Buna görə də elektron portalda xidmətləri həyata keçirən zaman elektron imzadan istifadə edilməsi zəruridir.

Vətəndaşların elektron hökumətə etimadının formalaşdırılması, onların şəxsi məlumatlarının mühafizəsi informasiya cəmiyyətinin prioritet istiqaməti kimi nəzərdən keçirilə bilər. Bu baxımdan informasiya təhlükəsizliyinin təmini zamanı elektron dövlət xidmətlərinin göstərilməsi sahəsində ixtisaslaşmış qurumlar öz fəaliyyətlərini və iş prinsiplərini xüsusi icazə və lisenziya əldə edilməsi yolu ilə həyata keçirirlər. Dövlət əhəmiyyətli, həmçinin, vətəndaşlara dair məxfi informasiyanın mühafizəsi üçün informasiya texnologiyaları və kommunikasiya avadanlıqlarına daxil olan məlumatların xüsusi üsullardan, proqramlardan istifadə edilməklə mühafizə olunması yerinə yetirilir və qeyd edək ki, bu prosesin reallaşdırılması müəyyən maliyyə imkanlarının mövcudluğunu ehtiva edir. Belə qurum və ya təşkilatlar tərəfindən əvvəlcədən məlumatların təhlükəsizliyinə qarşı yönəlmiş təhdid və təhlükələrə dair ehtimallar proqnoz edilməklə yanaşı, bu cür təhlükələrin qarşısının alınması istiqamətində bütün mümkün vasitələrdən istifadə imkanları nəzərdən keçirilməlidir [7, s. 576].

## Elektron portal vasitəsilə həyata keçirilən xidmətlər

E-gov portalı vasitəsilə həftənin bütün günləri xidmətlər həyata keçirilir və bu xidmətlərin üç istiqamətdə qruplaşdırılması mümkündür:

- Hökumətdən vətəndaşlara (G2C);
- Hökumətdən sahibkarlara (G2B);
- Hökumətdən hökumətə (G2G).

Burada hökumətdən hökumətə dedikdə, dövlət qurumları arasında baş tutan xidmətlər nəzərdə tutulur ki, buraya qurumlararası əlaqələri, yazışmaları və s. göstərmək olar. Portalda əsas xidmət növləri vətəndaşlar və sahibkarlar üçün nəzərdə tutulmuşdur. Vətəndaş xidmətləri deyərkən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Elm və Təhsil Nazirliyi, İqtisadiyyat Nazirliyi və Dövlət İmtahan Mərkəzi kimi qurumlar tərəfindən göstərilən xidmətlər nəzərdə tutulur [9]. Bu xidmətlərə arayışların verilməsini, lisenziya və icazələrin alınmasını, müraciətlərin qəbulu kimi xidmətləri aid etmək olar.

Sahibkarlar üçün nəzərdə tutulmuş xidmətlər dedikdə isə müvafiq qurumlar tərəfindən icazələrin alınmasını və məlumatların təqdim olunmasını göstərə bilərik. Burada İqtisadiyyat Nazirliyi və Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən göstərilən xidmətlər daha çox üstünlük təşkil edir. Aidiyyəti qurumlar tərəfindən sahibkarlara göstərilən konkret xidmətlərə hesabatların təqdim olunması, əmək müqaviləsi ilə bağlı, lisenziya və icazələr ilə bağlı, daşınmaz əmlak məsələləri, elektron bəyannamə kimi bir çox xidmətlər aiddir [9].

Azərbaycan Respublikasında biznes mühitinin və sahibkarlığın inkişafı üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən imzalanmış "Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" fərmana uyğun olaraq hüquqi və fiziki şəxslərə "bir pəncərə" prinsipi əsasında elektron qaydada xidmətlərin göstərilməsi həyata keçirilir. Yeni biznes sektorlarının yaranması və inkişafı məqsədilə "elektron hökumət" portalı vasitəsilə həyata keçirilən onlayn xidmətlərin sayı və keyfiyyəti artırılır. "Elektron hökumət" portalı üzərindən həyata keçirilən xidmətlər elə bir qaydada hazırlanmışdır ki, şəffaflıq və vətəndaş-məmur münasibətlərinin tənzimlənməsi prinsipinə uyğun olsun. Bu portalın tətbiqi və istifadəyə verilməsi ilə dövlət və istehlakçıların şəxsi qarşılıqlı əlaqəsi minimum səviyyəyə çatdırılmış, eyni zamanda, şəffaf və səmərəli xidmətlərin göstərilməsi təmin edilmişdir [6, s. 1394-1395].

Portalın əsas əhəmiyyət göstəricisi kimi qeyd edilməlidir ki, portal öz fəaliyyətini modulluq, sərbəstlik, sistemlilik, təhlükəsizlik, səmərəlilik, şəffaflıq və istifadə asanlığı prinsipləri əsasında yerinə yetirir [1]. Portal vasitəsilə xidmətlərin göstərilməsi qeydiyyatlı və qeydiyyatsız olmaqla iki qrupda həyata keçirilir.

Qeydiyyatlı xidmətlərdən istifadə edilməsi üçün istifadəçi tərəfindən portala giriş edilməlidir. Portal istifadəçiləri dedikdə, dövlət qurumları, fiziki və hüquqi şəxslər nəzərdə tutulur [1]. Giriş etmək elektron imza və asan imza vasitəsilə mümkündür. Bundan əlavə portalın digər mühüm göstəricisi kimi hesaba identifikasiya nömrəsi ilə daxil olmağın mümkünlüyü qeyd edilməlidir. İstifadəçinin identifikasiya nömrəsi ilə portala daxil olmaq üçün hər hansı xidmət məntəqəsinə getməsinə ehtiyac yoxdur, yəni bunun üçün təlimat videosuna baxmaq və orada göstərilən ardıcıllığı yerinə yetirmək kifayət edir.

E-gov.az portalının fəaliyyətinin daha da inkişaf etdirilməsi üçün istifadəçilərin maarifləndirilməsi vacib amillərdən biridir. Hazırda portala baxış sayı on milyonu keçmişdir ki, bu göstərici isə kifayət qədər yüksək hesab olunur. Burada vətəndaşların qeydiyyatdan keçmədən bir sıra xidmətlərdən yararlanması mümkün olsa da, qeydiyyatlı xidmətlərdən istifadə edən vətəndaşların sayının artırılması mühüm əhəmiyyət kəsb edir [9].

Hazırda dövlət xidmətləri ilə bağlı vahid məlumat portalında 144 dövlət qurumu mövcuddur ki, onlardan 31-i mərkəzi icra hakimiyyəti orqanları, 79-u yerli icra hakimiyyəti orqanları, 31-i hüquqi şəxslər və 3-ü digər büdcə təşkilatlarını təşkil edir. Qeyd edilən dövlət qurumları tərəfindən 1186 dövlət xidməti həyata keçirilir və onların yarısından çoxunu, yəni 608 xidmət elektron qaydada təqdim olunur [9].

### Portalın fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində beynəlxalq təcrübənin öyrənilməsi və əməkdaşlıq

Rəqəmsallaşan dünyada dövlətlər elektron hökumətin həyata keçirilməsini bulud və X-road texnologiyası vasitəsilə yerinə yetirirlər. Bulud texnologiyası məlumatların mərkəzləşməsi prinsipinə əsaslanır və bir çox Avropa ölkələrinin əksəriyyəti, həmçinin Şərqi Asiya dövlətləri “cloud computing” sistemi vasitəsilə elektron hökumətin həyata keçirilməsini təmin edirlər. Digər modeldə isə dövlət qurumlarının informasiya sistemlərinin müstəqilliyi saxlanılaraq təhlükəsiz məlumat mübadiləsinin təmin edilməsi prinsipinə üstünlük verilir. Azərbaycan Respublikasında elektron hökumətin tətbiqinin ilk illərində dövlət orqanları arasında təhlükəsiz məlumat mübadiləsi prosesini təmin etmək üçün elektron hökumət quruculuğunda pərakəndə model (X-road) əsas hesab edilmişdir. Lakin hazırda müşahidə edilən proses pərakəndə modeldən mərkəzləşmiş modelə, yəni bulud texnologiyasına keçidin əlamətlərini göstərir ki, bu istiqamətdə isə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin nəzdində böyük bir data mərkəzinin formalaşdırılması və açıq hökumət məlumatları portalının tətbiqi hazırda mühüm rola malikdir. Beləliklə, mərkəzləşmiş sistem vasitəsilə mümkün informasiya məlumatlarının internet məkanda yerləşdirilməsi və əldə edilməsi operativliyi təmin etmişdir [6, s. 1393].

E-gov portalını digər ölkələrlə müqayisə etsək, portalın ümumi baxımdan ciddi fərqlənmədiyini deyə bilərik. Böyük Britaniyada dövlət xidmətlərinə gov.uk veb-saytına daxil olaraq müraciət etmək mümkündür [12]. Müvafiq veb-sayt 31 yanvar 2012-ci tarixində fəaliyyətə başlamışdır. 2022-ci ildə gov.uk portalı vasitəsilə 23 nazirlik, 20 nazirlikdən kənar qurumlar və 410-dan çox agentlik, eləcə də, digər dövlət orqanları tərəfindən xidmətlərin göstərilməsi təmin edilmişdir [14].

E-gov.az portalını Türkiyədə elektron dövlət xidmətlərini həyata keçirən e-Devlet kapısı veb-saytı ilə müqayisə etsək, görərik ki, burada xidmətlərdən yararlanmaq üçün portala birbaşa giriş etmək lazımdır. Qeyd edək ki, müvafiq sayt 2008-ci ildən fəaliyyətə başlamışdır və hazırda bu dövlət portalının 63 milyondan çox istifadəçisi mövcuddur, eyni zamanda, burada 990 qurum tərəfindən 7200-dən çox xidmət göstərilir [11].

Şəffaflığın artırılması və bürokratiyanın tam aradan qaldırılması üçün Türkiyənin təcrübəsindən faydalanmaq məqsədi ilə 1 sentyabr 2022-ci il tarixində “ASAN xidmət” və türkiye.gov.tr saytı arasında inteqrasiyalı formada ikitərəfli əməkdaşlıq edilməsi ilə bağlı razılığa gəlinmişdir. Türkiyə-Azərbaycan elektron hökumət sistemlərinin inteqrasiyalı formada əməkdaşlıqlarının təqdimat mərasimi “TEKNOFEST KARADENIZ” də baş tutmuşdur. Müvafiq əməkdaşlıq və razılaşma nəticəsində hər iki ölkə vətəndaşları üçün qarşılıqlı səfərlər zamanı yaşayış icazəsi, təhsil kimi sahələrdə sənədləşmə prosesləri asanlaşmış olacaqdır.

Beynəlxalq təcrübənin öyrənilməsi və uğurlu tətbiqi inkişafın əsas açarı hesab edilir. Buna görə də daxili imkanlarla yanaşı mütəmadi olaraq beynəlxalq təcrübənin araşdırılması e-gov portalının fəaliyyətinin əhəmiyyətini daha da artırmış olacaq. Lakin, portalın perspektiv imkanlarını saxlamaq üçün informasiya və məlumatların təhlükəsizliyi məqsədilə onun texniki-texnoloji tərəflərinə mütəmadi olaraq nəzarətin həyat keçirilməsi vacibdir. Portalın təhlükəsiz fəaliyyətinin təmin edilməsi üçün ən son texnoloji avadanlıqlardan istifadə

edilməsi mühüm rol oynayır. Buna görə də hazırda portal vasitəsilə vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin artırılmasına diqqət yetirildiyi qədər, portalın öz fəaliyyətini təşkil etməsi üçün onun texnoloji tərəfi də diqqətdə saxlanılmalıdır.

**Nəticə**

İnformasiya və kommunikasiya texnologiyalarının tətbiqi və inkişafı dövlət idarəçiliyinə də öz təsirini göstərmiş oldu. Son illər inkişaf etmiş dövlətlərdə elektron hökumət anlayışı xüsusi aktuallıq kəsb etdi və idarəetmədə yeni bir mərhələ başladı. Azərbaycan Respublikasında da elektron hökumətin formalaşdırılması beynəlxalq təcrübəyə əsaslanmışdır.

Azərbaycan Respublikasının Milli Elektron Hökumət Portalı dövlət qurumları tərəfindən göstərilən bütün xidmətləri bir platformadan göstərmək məqsədilə yaradılmışdır. Bu səbəbdən e-gov portalı özündə bütün elektron xidmətləri birləşdirir və mühüm rol oynayır. Portaldan istifadənin asanlığı bütün vətəndaşların rahat şəkildə xidmətlərdən istifadə etməsinə şərait yaradır. Elektron hökumət portalında xidmətlərin göstərilməsinin təkmilləşdirilməsi məqsədilə mütəmadi olaraq yeniliklər edilir və hazırda portalın əvvəlki versiya və yeni versiyası mövcuddur. Bu isə imkan yaradır ki, yeni versiyaya tam uyğunlaşma prosesinədək tətbiqin hər iki versiyasından istifadə etmək mümkün olsun.

Ümumilikdə, qeyd etmək mümkündür ki, milli elektron hökumət portalı hazırda istifadəçilər üçün çox mühüm rola malikdir və müasir dövrdə portaldan istifadə edən vətəndaşların sayı sürətlə çoxalır ki, bu amil portalın əhəmiyyətini bir daha göstərmiş olur. Yekunda qeyd olunanları nəzərə alaraq elektron hökumət portalının perspektiv imkanlarını dəyərləndirmək məqsədilə aşağıdakı təklif və tövsiyələr irəli sürülmüşdür:

- Portal vasitəsilə QR kodla təqdim edilən arayışların sayının artırılması və bu xidmətlərdən vətəndaşların ödənişsiz imkanlarının saxlanılması;
- Vətəndaşların elektron portal vasitəsilə dövlət xidmətlərindən istifadə etməyə təşviq edilməsi;
- Ödənişli qaydada həyata keçirilən xidmətlərdən istifadə imkanlarının daha da asanlaşdırılması və ödəniş metodlarının çeşidliyi;
- Portalda texniki təhlükəsizlik məsələlərini və məlumat təhlükəsizliyini diqqətdə saxlamaq;
- Məlumat və informasiyanın silinməsi ehtimalını nəzərə alaraq mütəmadi qayda da ehtiyat nüsxənin mövcudluğunu təmin etmək.

**ƏDƏBİYYAT SİYAHISI:**


*1. "Elektron hökumət" portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi və elektron xidmətlərin genişləndirilməsi ilə bağlı tədbirlər barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı-2013, https://e-qanun.az/framework/ 25215*

*2. "Elektron hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nın və "İnformasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərin "Elektron hökumət" portalına qoşulması üçün Texniki Tələblər"in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı, Bakı-2014. https://e-qanun.az/framework/27667*

*3. Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya. (2014). https://ict.az/uploads/files/2014-2020_stradegiya.pdf*

*4. Abasova, S. (2008). Texnologiyalar və yeniliklərin idarəedilməsi. Bakı, 288 s.*

*5. Muradova, A. (2005). Elmi-texniki potensial: əsas inkişaf meylləri və problemləri. Bakı, 324 s.*

*6. Süleymanov, M. (2023). V. İqtisadiyyat və İdarəetmə Sahəsində Tədqiqatçıların Beynəlxalq elmi Konfransı. Elektron İdarəçilikdə Dövlət-Özəl Tərəfdaşlığının Əhəmiyyəti və Həyata Keçirilməsi 1389-1398 s.*

*7. Süleymanov, M. (2023). "Azərbaycan təhlükəsizlik orqanlarının fəxri rəhbəri" adlı respublika elmi-praktiki konfransı. Azərbaycan Respublikasında elektron idarəetmə sisteminin formalaşmasında dövlət siyasətinin həyata keçirilməsi 575-577 s.*

*8. Lironi, E., 2018, Harnessing Digital Tools to Revitalize European Democracy, https://carnegieeurope.eu/2018/11/28/harnessing-digital-tools-to-revitalize-european-democracy-pub-77806*

*9. Azərbaycan Respublikasının elektron hökumət portalı. https://e-gov.az/az/*

*10. Unified State Web Portal of Electronic Services "Diia" https://se.diia.gov.ua/en/ unified-state-web-portal-of-electronic-services-diia*

*11. E-Devlet Kapısı https://www.turkiye.gov.tr/*

*12. The website for the UK government https://www.gov.uk/*

*13. https://tr.m.wikipedia.org/wiki/E-Devlet_(T%C3%BCrkiye)*

*14. https://www.eservices.co.uk/*

*15. https://en.m.wikipedia.org/wiki/Gov.uk#*

*16. https://www.gov.uk/government/organisations/government-digital-service*

*17. https://az.m.wikipedia.org/wiki/Elektron_H*

%C3%B6kum%C9%99tin_%C4%B0nki%C5%-9Faf%C4%B1_M%C9%99rk%C9%99zi
18. https://www.itechgroup.az/e-government/en

## XÜLASƏ

Məqalədə dövlət xidmətlərinin göstərilməsi istiqamətində elektron hökumətin inkişafı və demokratiyanın əsas göstəricilərindən biri kimi Azərbaycan Respublikasının Milli Elektron Hökumət Portalının yaradılmasının əhəmiyyəti göstərilmişdir. Eyni zamanda burada beynəlxalq əməkdaşlığın həyata keçirilməsi, növbəti mərhələlərdə e-gov portalının perspektivlərini yüksəltmək üçün digər ölkələrin təcrübəsinin tətbiqi ilə bağlı müəyyən təkliflər irəli sürülmüşdür. Həmçinin, portalın fəaliyyət istiqamətləri və prinsipləri göstərilərək, portalın yaradılmasının əsas məqsədi qeyd edilmişdir. Portal istifadəçilərinin portaldan istifadə qaydaları və məlumatları əldə etmək imkanları göstərilmişdir. Azərbaycan Respublikasının Milli Elektron Hökumət Portalının hazırkı fəaliyyəti təhlil edilərək, mövcud xidmət sektorlarının təqdim olması ilə yeni mərhələdə şəffaflığın, səmərəliliyin, sistemliliyin və vaxt itkisinin qarşısının alınmasının təmin edilməsinin vacib əhəmiyyət kəsb etməsi qeyd olunmuşdur.

**Açar sözlər:** *təhlükəsizlik, e-gov, e-xidmət, portal, "bir-pəncərə".*

**Muraz Suleymanov**
***Doctoral student of the Department of Political Science and Sociology***
***E-mail: murazsuleymanov01@gmail.com***
***Orcid İD :0009-0002-2025-4289***

**Importance and prospects of the National Electronic Government Portal of the Republic of Azerbaijan**

## SUMMARY

The importance of the creation of the National Electronic Government Portal of the Republic of Azerbaijan as one of the main indicators of the development of electronic government and democracy in the direction of providing public services is shown in the article. At the same time, certain proposals have been put forward for the implementation of international cooperation and the application of the experience of other countries in order to raise the prospects of the egov portal in the next stages. Also, the directions and principles of the portal's activities were indicated, and the main purpose of the portal's creation was mentioned. The rules of using the portal and the possibilities of obtaining information for the users of the portal are indicated. Analyzing the current activity of the National Electronic Government Portal of the Republic of Azerbaijan, it was noted that it is important to ensure transparency, efficiency, systematicity and prevention of time loss at the new stage with the presentation of existing service sectors.

**Keywords:** *portal, e-gov, security, service, "one-window".*

**Мураз Сулейманов**
***Докторант кафедры политологии и социологии Бакинского Государственного Университета***
***E-mail: murazsuleymanov01@gmail.com***
***Orcid İD :0009-0002-2025-4289***

**Значение и перспективы создания Национального портала электронного правительства в Азербайджанской Республике**

## РЕЗЮМЕ

В статье показана важность развития электронного правительства в направлении предоставления государственных услуг и создания Национального портала электронного правительства Азербайджанской Республики как одного из основных показателей демократии. При этом были выдвинуты определенные предложения по реализации международного сотрудничества и применению опыта других стран с целью повышения перспектив портала электронного правительства на следующих этапах. Также были обозначены направления и принципы деятельности портала, а также упомянута основная цель создания портала. Указаны правила использования портала и возможности получения информации для пользователей портала. Анализируя текущую деятельность Национального портала электронного правительства Азербайджанской Республики, было отмечено, что на новом этапе с презентацией существующих сфер услуг важно обеспечить прозрачность, эффективность, системность и предотвращение потери времени.

**Ключевые слова:** *безопасность, электронное правительство, электронные услуги, портал, «одно окно».*